**Günel Kazımova**
**Magistrant**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**E-mail:** gunelkazimova1995@gmail.com

## Elmira Şahtaxtinskaya yaradıcılığının səciyyəvi xüsusiyyətləri

**Xülasə:** Məqalədə Elmira Şahtaxtinskayanın həyat və yaradıcılığı araşdırılmış, rəssamın silsilə əsərləri təhlil edilmişdir. Müəllif Elmira Şahtaxtinskayanın yaradıcılığının əsas xüsusiyyətlərinə diqqət çəkməyə çalışmışdır.

**Açar sözlər:** Elmira Şahtaxtinskaya, rəssam, təsviri sənət, plakat, mənzərə, qrafika, silsilə əsər, miniatür, mədəniyyət, kolorit.

Azərbaycan təsviri sənətinin inkişafında rolu olmuş və özünəməxsus iz qoymuş qadın sənətkarlarımızdan biri də Elmira Şahtaxtinskayadır. Onun xidmətləri Azərbaycan təsvri sənətində böyük yer almış və sənətşünaslar tərəfindən xüsusi qeyd olunmuşdur.

Elmira Şahtaxtinskaya 1930-cu ildə görkəmli kimyaçı alim, akademik Həbibulla Şahtaxtinskinin ailəsində dünyaya göz açmış, kiçik yaşlarından istedadı kəşf edilmişdir. İlk təhsilini Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda almış, daha sonra isə V. İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitunda təhsilini davam etdirmişdir. Rəssam, müəllimləri professor M.M. Çeremnix və professor N.A. Ponomariyovdan çox şey öyrənmişdir. Oxuduğu illər ərzində Elmira Şahtaxtinskaya bu sənətin sirlərini dərindən mənimsəmişdir.

Elmira Şahtaxtinskayanın yaradıcılığında silsilə bədii rəsm əsərləri xüsusi yer tutmuşdur. Onun əsas rəssamlıq fəaliyyəti təsviri sənətin qrafika sahəsində özünü göstərir. Hal-hazırda Elmira Şahtaxtinskayanın yaratdığı gözəl sənət nümunələri təkcə doğma vətənimizdə deyil, həmçinin xarici ölkələrin muzeylərində, qalereyalarında və şəxsi kolleksiyalarda saxlanılır. Gözəl plakatlar və dəzgah rəsmləri onun bədii yaradıcılığında əsas yer tutur. Akvarel və quaş texnikasında işlənmiş silsilə bədii rəsm əsərləri müəllifin yaradıcılığını daha da zənginləşdirir.

Elmira Şahtaxtinskaya gənc yaşlarından başlayaraq, öz yaradıcılıq fəaliyyətinə görə çoxlu sayda medal və laureatlar əldə etmişdir. Buna misal olaraq, 1957-ci ildə Azərbaycan gəncləri festivalının I dərəcəli medalı və Laureat diplomu ilə təltif olunub. Rəssam 1963-cü ildə Azərbaycanın Əməkdar incəsənət xadimi, 1977-ci ildə isə Xalq rəssamı adlarına layiq görülüb. Rəssamın yaradıcılıq əsərləri bir sıra xarici ölkələrin sərgilərində nümayiş

etdirilmiş, özünün fərdi sərgiləri təşkil olunmuşdur. Buna misal olaraq, 1967 və 1988-ci illərdə Moskvada, 1967-ci ildə isə Kaunasda, 1967 və 1989-cu illərdə Bakıda, 1979-cu ildə Naxçıvanda keçirilən fərdi sərgilərini göstərmək olar.

Rəssam Elmira Şahtaxtinskayanın sənətkarlıqdan əlavə idarəçilikdə də öz bacarıqları olmuşdur. Belə ki, o bir sıra məsul vəzifələrdə də çalışıb fəaliyyət göstərmişdir. O, SSRİ və Azərbaycan Rəssamlar İttifaqının İdarə Heyətinin üzvü, “ Azərnəşr”in bədii redaktoru, Nəşriyyat və Poliqrafiya üzrə Dövlət Komitəsinin baş rəssamı, “ Plakat” nəşriyyatının Zaqafqaziya üzrə komitəsinin üzvü olub.

Rəssamının yaradıcılığının ilk dövrləri plakat janrında əsərlərlə başlamış, sonrakı dövrlərdə digər texnika və üslublarla işlənilmişdir. Onun plakatları mövzusunun özünəməxsus səlis ifadə həlli və güclü bədii təsir qüvvəsi ilə diqqəti cəlb edirdi.

Yaradıcılığının ilk dövrlərində rəssam əsasən siyasi plakat janrında əsərlər işləyirdi. Lakin, XX əsrin 70-ci illərindən başlayaraq, Elmira Şahtaxtinskaya siyasi plakatlarla yanaşı, daha çox Azərbaycanın Orta əsrlərində yaşamış görkəmli elm, ədəbiyyat və incəsənət xadimlərinin, həmçinin memarlıq abidələrinin yadda qalan, cəlbedici və hamının başa düşüb, qəbul edəcəyi dildə təsvirlərini yaratmağa başlayır. Elmira Şahtaxtinskayanın yaradıcılığında xüsusi yer tutan və özünəməxsus çəkiyə malik olan “Azərbaycan – qədim mədəniyyət diyarıdır” silsiləsini 1971-ci illərdə yaratmışdır. Bu silsilə 30-a qədər plakatdan ibarətdir. Hansı ki, bu plakatlar Azərbaycan təsviri sənətində yeni bir bədii yaradıcılıq istiqaməti olmuşdur. Sonrakı illərdə bu seriyadan olan yaradıcılıq əsərləri təsviri sənət tariximizdə dəyərli sənət nümunələrinə çevrildi. Rəssamın yaradıcılığında milli ənənələrin qorunması asanlıqla hiss olunur. Belə ki, bu xüsusiyyət barəsində danışdığımız silsilə əsərlərində də özünü büruzə verir. Elmira Şahtaxtinskaya özü daim milli ənənələrə həssas yanaşmaqla yüksək bədii estetik zövqə malik dəyərli əsərlər ərsəyə gətirmişdir. Elmira Şahtaxtinskaya Şərq miniatür üslubuna xüsusi önəm verirdi. O, hətta Şərq miniatürünün, Şərq plakatının öyrənilməsi və yaradılmasının bir baza rolu oynadığını bildirirdi. O, miniatür üslubunun öz xarakterinə, bədii formasına, səthi-dekorativ şərtiliyinə, ümumiliyinə və eyni zamanda son dərəcə konkretliyinə görə bu sənətə xüsusi önəm və heyranlıqla baxırdı. Belə ki, onun yaradıcılığında Şərq miniatürünün nə qədər təsir etdiyini rahatlıqla görmək mümkündür.

Rəssamın silsilələrində milli-mənəvi dəyərlərə sayğısını, həmçinin özünün vətəndaşlıq mövqeyini bir daha görmək mümkündür. O, Azərbaycanın minilliklərlə formalaşmış zəngin mədəniyyətinin dünyaya tanıdılmasında misilsiz rol oynayan əsərlər yaratmışdır. Barəsində danışdığımız silsilə əsərində işlənmiş yaradıcılıq işlərinin əksəriyyəti Azərbaycan təsviri sənətində mühüm

yerə və qiymətə malikdir. Bu əsərlərin demək olar ki, hamısı Azərbaycanın milli ənənələri və tarixi ilə bağlıdır. Misal olaraq "Azərbaycan qədim mədəniyyət ölkəsidir" (1972), "Şahtaxtı və Kül-təpə küplərinin dörd və altı min yaşı var" (1973), "Azərbaycan plastikasının üç min illik yaşı var" (1974), "Azərbaycan poeziyasının klassikləri dünya ədəbiyyatının korifeyləridir" (1972), "Şair Qətran Təbrizi"(1988), "Xəqani Şirvani" (1986), "Nizami Gəncəvi" (1982), "İmadəddin Nəsimi" (1969), "Məhəmməd Fizuli" (1984, 1993), "Şah İsmayıl Xətai" (1986), "Hüseyn Cavid" (1982), "Səməd Vurğun" (1976), "Nəsrəddin Tusi" (1973,1980), "Rəşid Bakuvi" (1984) və s.

Elmira Şahtaxtinskaya öz yaradıcılığında peşəkar idi. Belə ki, rəssam yaradıcılıq işinə başlamamışdan öncə, rəsmini işləyəcəyi şəxsin həyat və yaradıcılığını dərindən araşdırır və bundan sonra rəsmini yaratmağa başlayırdı. Bir sözlə, rəssam işinə çox ciddi yanaşaraq apardığı gərgin yaradıcılıq müşahidəsinin uğurlu əsərlər yaratmaqla sona yetirirdi.

Əcəmi Naxçıvaninin 850 illiyinə həsr edilmiş portretinin Şərq qiyafəli memar sağ əlində üzərində düşündüyü memarlıq ilahəsini tutmuş vəziyyətdə və işıqlı çöhrəsi ətrafa yönəlmiş halda təsvir edilib. Rəssam əsərin fonunda uğurlu üslubdan faydalanmışdır. Belə ki, memarın artıq müəllifi olduğu Mömünə Xatun, Yusif ibn Küseyr türbələrini və Naxçıvan memarlıq məktəbinin digər abidələrini elə uğurlu bədii ifadə vasitələri ilə tamaşaçı diqqətinə çatdırmışdır. Əsəri izləyən tamaşaçı yaradıcının məharətinə heyran qalmaya bilməz. Qeyd etdiyimiz xüsusiyyətləri rəssamın bu silsiləsindən olan digər əsərlərinə də şamil etmək olar. Belə ki, rəssam eyni zamanda qrafik rəsmləri, akvarel və quaş texnikasında işləmiş bir çox silsilə əsərləri vardır. Məhz, "Bakı" silsiləsini buna misal göstərmək olar. 1958-59-cu illərdə işləmiş "Bakı" silsiləsi əsərlərində Bakı şəhərinin görüntülərini, Xəzər dənizinin poetik biçimli panoramını, insanların diqqəti cəlb edən surətlərini, həssas qəlbi və incə yaradıcı zövqlə bədiiləşdirib. Bu silsiləyə misal olaraq, "Bakıda qış", "Dənizdən Bakının görünüşü", "Dəniz sahillərində", "Nizami meydanı", "Azneft meydanı" və başqa əsərləri göstərmək olar. Rəssamın qarlı havaya, qış səhnələrinə müraciəti nadir hallarda olur. Ona görə də rəssamın bu əsərləri daha çox qiymətləndirilməyə layiq görülür. Elmira Şahtaxtinskaya yaratdığı əsərləri çəkməzdən əvvəl Azərbaycanın bütün bölgələrini gəzib dolaşır və bundan sonra o, gözəl kompozisiyalar yaradaraq, əsərə çevirirdi. O, Naxçıvan, Gəncə, Quba, Gədəbəy, Zaqatala, Şuşa və Azərbaycanın digər bölgələrini öz əsərlərində təsvir etmişdir. Əsasən, Elmira Şahtaxtinskaya gəzdiyi Azərbaycan bölgələrinin füsunkar təbiətinin ani dəyişikliklərini öz əsərlərində canlandırırdı. Bu cür əsərlərə "Gecə mənzərəsi"(1958), "Liman"(1960), "Göygöl"(1960), "Quba yaxınlığında mənzərə"(1963), "Qəş mənzərəsi"(1963), "Qarlı dağlar"(1964), "Şəki yaxınlığında mənzərə"(1973) və digərlərini göstərmək olar.

Elmira Şaxhaxtinskaya yaradıcılığında digər silsilə əsərlərindən biri də 1980-cı ildə ərsəyə gətirdiyi "Ağaclar" silsiləsidir. Bu silsilədə o, yaratdığı əsərləri gördüyü kimi deyil, daha çox ideal və fəlsəfi formalarda təsvir etmişdir. O, əsasən kolorit həllinin kamilliyi, dəqiq qrafik işləmə xüsusiyyətləri ilə seçilən əsərlər yaratmışdır.

Elmira Şahtaxtinskaya haqqında bir çox tanınmış şəxsiyyətlər öz fikirlərini söyləmişlər. Onlardan biri də Tahir Salahov olmuşdur. O, deyirdi ki: "1960-cı ildə Naxçıvanda yaradıcılıq ezamiyyətində olarkən Şahtaxtıda oldum. O zaman mən yəqin etdim ki, Elmira xanımın həyatında və yaradıcılığında aldığı qüvvətli enerji haradandır." Bütün bunlara nəzər yetirərək, belə bir nəticəyə gələ bilərik ki, Elmira Şahtaxtinskaya bütün həyatı boyu yaradıcılıq axtarışında olub və özündən sonra gələn nəsillərə də böyük bədii irs qoymuş rəssamlarımızdandır.

## Ədəbiyyat:

1. Kərimov K.Ç., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D.-"Azərbaycan İncəsənəti"- Bakı 1992
2.Salamzadə Ə.R., Kərimov K.Ç., Əfəndiyev R.S., Rzayev N.İ., Həbibov N.D.-"Azərbaycan İncəsənəti"- Bakı 1977
3. Маркс и Энгельс об искусстве. М., 1996.
4. В. И. Ленин о литературе и искусстве. М., 1969.
5. Абдуллаева Н. Ковровое искусство Азербайджана. Баку, 1971.

## Характерные особенности творчества Эльмиры Шахтахтинской
## Резюме

В статье исследованы жизнь и творчество Эльмиры Шахтахтинской, проанализирован цикл работ художницы. Автору статьи удалось привлечь внимание к основным особенностям творчества Эльмиры Шахтахтинской.

**Ключевые слова:** Эльмира Шахтахтинская, художник, изобразительное искусство, плакат, пейзаж, графика, сериал, миниатюра, культура, раскраска

## Characteristic features of the creativity of Elmira Shakhtakhtinskaya
## Summary

The article researches Elmira Shakhtakhtinskaya's life and creativity. Her series of works are analyzed and shown in this article. The value of her creativity is reflected in this article.

**Key words:**Elmira Shakhtakhtinskaya, artist, fine art, poster, landscape, graphics, series, miniature, culture, coloring